

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 noyabr 2021-ci il №86 (2594) https://mod.gov.az Qiymәti 30 qəpik

# Vətənimizin müdafiəsi etibarlı əllərdədir

***Müzəffər Ali Baş Komandanın sərkərdəliyi altında Azərbaycan Ordusunun yazdığı Zəfər salnaməsindən artıq bir il ötür. 30 ilə yaxın sürən torpaq həsrətinə 44 günə son qoyan məğrur Azərbaycan əsgərinin cəsarəti artıq bütün dünyaya məlumdur. Haqq savaşında düşməni məğlubiyyətə düçar edən hərbi qulluqçularımızla söhbətimiz zamanı hər dəfə dəyişilməz bir fikir diqqətimi çəkir - tarixi ərazilərimizi işğaldan azad etmək niyyətimiz, qəsbkarlara nifrət hissimiz qarşısında düşmənin tab gətirməsi mümkün deyildi. Həqiqətən də, Ali Baş Komandanın rəhbərliyindən, xalqın birliyindən güc alan Azərbaycan əsgərinə bu müqəddəs amala çatmaq yolunda heç bir maneə təsir edə bilməzdi. Təsir edə bilmədi də. Dünyanın 30 ilə yaxın qeyri-konstruktiv yanaşdığı, ikili standart yürütdüyü məsələni vətənpərvər oğullarımız 44 günə həll etdi.***



Tarixi ərazilərimizin azad olunduğu və üçrəngli bayrağımızın ucaldığı təqvim günləri hər bir azərbaycanlının yaddaşına ömürlük həkk olundu. Ötən ilin bu günlərində yaşından, peşəsindən asılı olmayaraq hər kəsin qəlbi döyüş meydanında Vətən oğulları ilə birlikdə döyünürdü. Bu qələbə bizə asan başa gəlmədi, şəhidlər verdik, qazilərimiz oldu. Lakin ən böyük təsəllimiz odur ki, Azərbaycan əsgəri Böyük Qələbə qazanaraq, şəhidlərimizin qisasını aldı.

"N" hərbi hissəsində döyüş hazırlığı məşğələsinin şahidi olduq. Onlara mane olmadan dərs prosesini izləyərək başa çatmasını gözlədik. Məşğələ rəhbərinin verdiyi suallara ətraflı cavabların verilməsi, praktiki tapşırıqların uğurla, normativə uyğun olaraq icra edilməsi şəxsi heyətin döyüş hazırlığının yüksək olmasının göstəricisi idi. Dərs prosesi başa çatdıqdan sonra leytenant Şükür Əliyevlə həmsöhbət olduq. Bir komandir olaraq üzərinə düşən vəzifənin tabeliyindəki əsgərləri əsl döyüşçü kimi formalaşdırmaq olduğunu qeyd edən zabit, həmçinin bildirdi ki, şəxsi heyət də öz növbəsində ona təhkim olunan silah və texnikanın taktiki-texniki göstəricilərini yaxşı mənimsəməli, ondan istifadə qaydasını mütləq mənada dərindən öyrənməlidir. "Keçirilən məşğələlər sayəsində nəzəri biliklərini artıran bölməmiz, təlimlərdəki praktiki sınaqlardan hər zaman üzüağ çıxmağı bacarıb. Belə ki, qarşıya qoyulan normativlərin vaxtında və dəqiq yerinə yetirilməsinin əsas prinsip kimi götürüldüyü təlimlərdə atəş mövqeyinin tutulması, texnikanın döyüşə hazır vəziyyətə gətirilməsi hərbi qulluqçudan yüksək peşəkarlıq tələb edən proseslərdir. Bölməmizdə xidmət edən təcrübəli müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları qeyd olunan proseslərin yerinə yetirilməsində öz təcrübə və biliklərini əsgərlərimizlə bölüşürlər ki, bu da verilən tapşırığın öhdəsindən lazımi səviyyədə gəlməsində mühüm rol oynayır".

Söhbət əsnasında gənc müsahibimin Vətən müharibəsi iştirakçısı olduğunu da öyrəndim. "Bu gün hər bir azərbaycanlı qürurludur. Çoxdan həsrətində olduğumuz tarixi ərazilərimiz işğaldan azad olunub. Qəhrəman oğullarımız sayəsində yazılan Zəfər salnaməmizə nəzər salsaq görərik ki, bu tarix Azərbaycan əsgərinin vətənpərvərlik, xalqa ehtiram, Ali Baş Komandana sədaqət hissindən alınan güc hesabına yazılıb. İgid oğullar öz qanı ilə bu tarixi yazıblar. Bu tarixi heç kim dəyişə bilməz. Biz bilirik ki, ərazi bütövlüyümüz, müstəqilliyimiz uğrunda canlarını qurban verən şəhidlərimizin ruhu şaddır. Çünki müqəddəs amalımıza çatmışıq, Böyük Qələbəni yaşayan və yaşadanlar sırasındayıq. Ölkə Prezidenti, Ali Baş Komandanın müvafiq Sərəncamlarına əsasən, "Cəbrayılın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif olunmuşam və bu təltiflərlə də qürur duyuram. Şəhid qardaşlarımıza rəhmət, qazilərimizə şəfa arzulayıram. Onların hər biri bu mötəbər tarixin bir parçasıdır”.

Növbəti həmsöhbətim Xaçmaz rayonundan hərbi xidmətə çağırılan Orxan İbrahimovdur. "Keçirilən dərsləri yaxşı mənimsəyərək, təlimlərdə qarşıya qoyulan tapşırıqları uğurla icra edirik. Əsgər olaraq dərslərə məsuliyyətlə yanaşır, hərbi biliklərimizi daim təkmilləşdirir, bizə təhkim olunan silah və texnikadan istifadə qaydasını dərindən mənimsəyirik. Bölməmizdəki BM-21 Qrad reaktiv yaylım atəş sistemi düşmənin canlı qüvvəsini və hərbi texnikasını məhv etmək üçün əlverişli vasitədir. Həmçinin düşmənin artilleriya və minaatan batareyalarının susdurulması, möhkəm sədlərinin dağıdılması üçün də tətbiq edilə bilir. Komandirlərimizin rəhbərliyi altında keçirilən təlimlərdə hərbi biliklərimizi sınaqdan keçirir, döyüşə hazırolma vərdişlərini təkmilləşdiririk, - deyə Orxan İbrahimov dedi...

Əsgər Tural İsmayılov bir zamanlar işğalda olan, lakin bu gün öz həqiqi sakinlərinin yolunu səbirsizliklə gözləyən Laçın rayonundandır. "Rəşadətli Azərbaycan Ordusu 44 günə Böyük Qələbəni təmin etdi. Uşaq olarkən ermənilərin xalqımıza qarşı törətdiyi amansız vəhşilikləri əks etdirən videogörüntüləri hər kəs kimi, mən də görmüşəm. Öz yurdundan didərgin düşən insanların sırasında mənim də yaxınlarım və doğmalarım olub ki, bunların hamısı düşmənə qarşı nifrətimi artıran aspektlərdir. Şükürlər olsun ki, mən də "Dəmir yumruq" əməliyyatının iştirakçısıyam və qürurluyam ki, xidmətim məhz həlledici döyüşün baş verdiyi dövrə təsadüf edib. Qəhrəman oğullar sayəsində Böyük Qələbə təmin edildi. Tarixi ərazilərimiz işğalçılardan təmizləndi. Azərbaycan əsgəri canı, qanı bahasına bu tarixi yazdı. Gələcək nəsil onların qəhrəmanlıq yolunu özlərinə örnək, nümunə biləcək - bu torpaq hər zaman qəhrəman oğulların Vətəni olacaq".

Əsgərlər Nihad Əliyev və Tamerlan Cavadlı da vurğuladılar ki, bundan sonra da Azərbaycan əsgəri olaraq Vətəni göz bəbəyi kimi qoruyacaqlar. Onlar, həmçinin bu gün Vətənin müdafiəsində durmaqdan fəxarət hissi keçirdiklərini dedilər və qeyd etdilər ki, qalib ordunun əsgəri olmaq - qürurverici olmaqla yanaşı, həm də məsuliyyətlidir. “Xalqımız əmin olsun ki, bu gün Vətənimizin müdafiəsi yenə də etibarlı əllərdədir”, - deyərək fikirlərini tamamladılar.

**"Azərbaycan Ordusu"**

# Müdafiə naziri xidməti müşavirədə qoşunlara müvafiq tapşırıqlar verib

*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, oktyabrın 30-da Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində xidməti müşavirə keçirilib.*



Müşavirəyə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri cəlb olunub. Azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik komandirləri, o cümlədən digər məsul zabitlər isə müşavirəyə video bağlantı vasitəsilə qoşulublar.

Əvvəlcə qardaş Türkiyə Respublikasının hərbi qulluqçularını Cümhuriyyət Bayramı münasibətilə təbrik edən Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarına çatdırıb.

Dövlət rəhbərliyinin diqqət və qayğısı nəticəsində hərbi qulluqçuların xidmət və məişət şəraiti, o cümlədən mənəvi-psixoloji vəziyyətinin daha da yüksəldilməsi istiqamətində aparılan işlər barədə bir daha ətraflı məlumat verilib.

Müşavirədə dövlət sərhədi və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikasının ərazilərindəki hazırkı vəziyyət təhlil edilib.

Nazir, Azərbaycan Ordusunda qoşunların hazırlığına xüsusi diqqət yetirilməsi, şəxsi heyətin döyüş hazırlığı və ayıq-sayıqlığının daim yüksək səviyyədə saxlanılması, onlara təhlükəsizlik qaydalarının çatdırılması və bu qaydalara əməl olunmasına ciddi nəzarət edilməsi, döyüş planlarının dəqiqləşdirilməsi, həmçinin maddi-texniki təminat məsələlərinə xüsusi diqqət yetirilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

Azad edilən ərazilərdə dislokasiya olunan hərbi hissələrdə qoşun xidmətinin təşkili, ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi, hərbi infrastrukturun yaradılması, dağ yollarının çəkilməsi və onların daim işlək vəziyyətdə saxlanılmasının vacibliyi vurğulanıb.

General-polkovnik Zakir Həsənov qış mövsümünü nəzərə alaraq bölmələrin fəaliyyətinin, xüsusilə dağlıq ərazilərdə xidmət edən bölmələrə lazımi ehtiyatların vaxtında çatdırılması məsələlərinin diqqətdə saxlanılması ilə bağlı müvafiq göstərişlər verib.

## Misir qəzeti: NATO-nun xüsusi nümayəndəsi Azərbaycana təşəkkürünü bildirib

Misirin nüfuzlu "Əl Əhram" qəzetində "NATO-nun xüsusi nümayəndəsi Azərbaycana təşəkkürünü bildirib" sərlövhəli məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə NATO-nun Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina Prizin Əfqanıstandakı əməliyyatlara dəstəyinə, xüsusən Azərbaycan hərbi kontingentinin müttəfiqlərin Kabil aeroportundan təxliyəsində oynadığı mühüm rola görə təşəkkürünü bildirdiyi qeyd olunub.

"Əl Əhram"ın məqaləsində diqqətə çatdırılıb ki, bu yaxınlarda Cənubi Qafqaz regionuna səfər edən xüsusi nümayəndə yüksək rütbəli hərbçilər və mülki şəxslərlə regional təhlükəsizlik məsələlərini, həmçinin Şimali Atlantika alyansının 2022-ci ildə Madriddə keçiriləcək sammitinə hazırlıq çərçivəsində dialoq və əməkdaşlıq məsələlərini müzakirə edib. O, Azərbaycanla əlaqələrin daha da genişləndirilməsi, ələlxüsus hazırkı tərəfdaşlıq kontekstində birgə fəaliyyət perspektivləri ətrafında da fikir mübadiləsi aparıb.

## Tank bölmələrində döyüş atışları icra olunub

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, 2021-ci ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusunun tank bölmələrində döyüş atışları icra olunub.

Döyüş maşınlarının idarə olunması vərdişlərini təkmilləşdirən tank heyətləri təyin olunan hədəflərə praktiki atışlar icra edib.



## Naxçıvanda tabor, divizion komandirləri və müavinləri ilə təlim-metodiki toplantı keçirilib





"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşdırma planı"na əsasən tabor, divizion komandirləri və müavinləri ilə təlim-metodiki toplantı keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, zabitlərin bölmələri idarəetmə vərdişlərinin yüksəldilməsi, əməliyyat və qərargah hazırlığı üzrə bacarıqlarının təkmilləşdirilməsi məqsədi ilə keçirilən toplantıda praktiki və göstərici məşğələlərə üstünlük verilib.

Səhra şəraitində təşkil edilmiş təlim yerlərində "Artilleriya divizionunun atış və atəşin idarə olunması", "Kiçik ölçülü hava hədəflərinə qarşı mübarizə", "Mövqelərin mühəndis cəhətdən hazırlanması" mövzularında məşğələlər keçirilib, atıcı silahlardan normativlərin yerinə yetirilməsi nümayiş olunub. Məşğələ zamanı minaatan batareyasının atışa hazırlanması və praktiki atış tapşırıqlarının yerinə yetirilməsi məşq etdirilib.

Toplantıda təmir emalatxanalarının və qida məntəqəsinin səhra şəraitində açılması, ehtiyat döyüş sursatının döyüş maşınlarında və nəqliyyat vasitələrində saxlanılması praktiki olaraq göstərilib.

Toplantının yekununda qarşıya qoyulan məqsədlərə nail olunduğu vurğulanaraq bölmələrin döyüş hazırlığının yüksəldilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

## Hərbi təlim toplanışına cəlb edilən hərbi vəzifəlilər tapşırıqları müvəffəqiyyətlə icra edir

Müdafiə nazirinin təsdiq etdiyi 2021-ci il üçün hazırlıq planına əsasən "N" hərbi hissəsində keçirilən hərbi təlim toplanışı davam edir. Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, ehtiyatda olan bir qrup hərbi vəzifəlilərin döyüş hazırlığının səviyyəsini, bilik və bacarıqlarını artırmaq məqsədilə keçirilən toplanışda müxtəlif tapşırıqlar yerinə yetirilib.





Tapşırıqların icrası zamanı hərbi vəzifəlilər hərbi xidmətdə qazandıqları döyüş vərdişlərini və təcrübələrini təkmilləşdirməklə yanaşı, ordumuzda silahlanmaya yeni qəbul edilmiş müasir silah, hərbi texnika və avadanlıqlardan istifadə qaydalarını mənimsəyirlər.

Plana uyğun olaraq ehtiyatda olan hərbi vəzifəlilər müxtəlif çaplı silahlardan təyin olunan hədəflərə atışlar icra ediblər.

Toplanışda qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

Təlim toplanışı noyabrın 6-dək davam edəcək.

# "Zəfər yolunun qəhrəmanları" silsiləsindən növbəti tədbir keçirilib





*Azərbaycan Respublikası Prezidentinin "Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 50 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planı uğurla yerinə yetirilməkdədir.*

Sərəncamda qeyd edilir ki, Ulu Öndərin daim qayğı ilə yanaşdığı və xüsusi diqqət yetirdiyi bu tədris ocağı ötən müddət ərzində respublikamızda milli peşəkar hərbçi kadrların hazırlanması sahəsində müstəsna xidmətlər göstərib, cəmiyyətdə hərbi peşənin nüfuzunun yüksəlməsində və taleyini hərb sənətinə həsr edən gənclərin sayının davamlı artmasında əhəmiyyətli rol oynayıb. Liseyin yetirmələri müstəqil Azərbaycan Silahlı Qüvvələrinin formalaşdırılması və möhkəmləndirilməsi işinə dəyərli töhfələr verib, ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda döyüşlərdə həmişə ön cəbhədə yer alıblar. Onlar böyük rəşadət nümayiş etdirərək "Vətən Müharibəsi Qəhrəmanı" və "Azərbaycanın Milli Qəhrəmanı" adlarına layiq görülüb, orden və medallarla təltif olunublar. Hərbi liseyin məzunları Vətən qarşısında vəzifə borclarını bu gün də şərəflə yerinə yetirirlər. Hazırda Silahlı Qüvvələrimizdəki zabitlərin əksəriyyəti məhz Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarıdır.

Tarix göstərir ki, ümummilli lider Heydər Əliyevin 50 il öncə yaratdığı indiki Cəmşid Naxçıvanski adına Hərbi Lisey, eləcə də onun Naxçıvan filialının bazasında yaradılan Heydər Əliyev adına Hərbi Lisey olmasaydı, bugünkü qalib Azərbaycan Ordusu haqqında danışmağa dəyməzdi. Bu gün Azərbaycan Ordusunun, o cümlədən konstitusiyada nəzərdə tutulan digər güc strukturlarının sıralarında xalqımızın haqlı olaraq "Heydər Əliyev Məktəbi" adlandırdığı bu təhsil ocağının yüzlərlə, minlərlə yetirməsi vardır. Onlar Azərbaycanın erməni işğalçılarının təxribatlarına qarşı başladığı Vətən müharibəsinin ilk günündən son Qələbə atəşlərinədək respublikamızın ərazi bütövlüyünün bərpası, tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda hərbi əməliyyatlarda fəal iştirak edib, şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazıblar.

Vətən müharibəsində şəhadətləri ilə tarix yazan, adları tarixə yazılan qəhrəman "Naxçıvanskilərdən" biri də kapitan Ceyhun Aydın oğlu Həsənovdur. Yaşasaydı, oktyabrın 29-da 36 yaşı tamam olacaqdı. Lakin şəhidliyinin birinci ildönümündən bir ay sonra vaxtilə yaşadığı Bakı şəhərinin Xətai rayonundakı Gəncə prospekti-50 ünvanında şəhidin ad günü təntənə ilə qeyd edilir.

Müdafiə Nazirliyi və Xətai rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Zəfər yolunun qəhrəmanları" silsiləsindən növbəti vətənpərvərlik tədbirində şəhidin ailə üzvləri, müharibə iştirakçıları, qazilər, təhsil aldığı xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları, Xətai rayon gəncləri və məktəblər iştirak ediblər.

Əvvəlcə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa olunub.

Mərasimi açıq elan etməzdən öncə polkovnik Abdulla Qurbani tədbir iştirakçılarını Müdafiə Nazirliyinin rəhbərliyi adından salamlayaraq deyib: "29 oktyabr günü qardaş Türkiyənin təqvimində Türkiyə Respublikasının milli bayramı - Respublika günüdür. Bu münasibətlə oktyabrın 28-də dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğana ünvanladığı təbrik məktubunda vurğulayıb ki, xalqımızın ortaq tarixi və milli-mənəvi dəyərləri kimi möhkəm təməllər üzərində dayanan Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələri birliyimizin və həmrəyliyimizin bariz ifadəsidir...

Azərbaycanın öz torpaqlarının işğaldan azad olunması uğrunda apardığı mübarizədə şəxsən cənab Ərdoğanın, qardaş Türkiyə dövləti və xalqının qəti, birmənalı siyasi və mənəvi dəstəyi böyük rol oynayıb. Azərbaycan-Türkiyə həmrəyliyini bir daha bütün dünyaya nümayiş etdirən bu dəstəyi xalqımız heç zaman unutmayacaq. Biz də bu gün Türk qardaşlarımızı bu əlamətdar gün münasibətilə ürəkdən təbrik edir və tədbirimizə başlayırıq".

Sonra polkovnik Abdulla Qurbani Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarının, kapitan Ceyhun Həsənovun Vətən müharibəsində göstərdikləri şəxsi igidlik, mərdlik və əfsanəvi qəhrəmanlıqlarından danışıb.

Nəzərə çatdırılıb ki, general-mayor Namiq İslamzadə, polkovnik Nizami Mövlanov, polkovnik Zaur Nudirəliyev, polkovnik-leytenant Anar Əliyev, mayor Zaur Hüseynov, baş leytenant Adil İbrahimli və digər hərbi qulluqçularla yanaşı, kapitan Ceyhun Həsənov da Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunan ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulan döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb.

Bildirilib ki, kapitan Ceyhun Həsənov 1985-ci ildə Tovuz rayonunun Çeşməli kəndində anadan olub. 2004-cü ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyi, 2008-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin Quru Qoşunları fakültəsini və Silahlı Qüvvələrin "Zabit ixtisas kursu"nu müvəffəqiyyətlə bitirib. İstər Naxçıvan Muxtar Respublikasındakı Əlahiddə Ümumqoşun Orduda, istərsə də Füzuli-Xocavənd bölgəsində xidmət edərkən komandanlıq tərəfindən qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlib.

Gənc leytenant motoatıcı taqım komandiri vəzifəsindən bölük komandiri və "kapitan" hərbi rütbəsinədək yüksəlib.



Vətən müharibəsinin ilk günündən komandiri olduğu mexanikləşdirilmiş bölüyün şəxsi heyəti ilə birlikdə Füzuli rayonu istiqamətində döyüş meydanına atılıb və qəhrəmancasına şəhid olub. 2020-ci il oktyabrın 29-da Bakıda böyük izdihamın iştirakı ilə İkinci Şəhidlər xiyabanında son mənzilə yola salınıb. Özündən sonra iki oğul övladı yadigar qalan şəhid zabitin xidmətləri yüksək qiymətləndirilib. Bir çox döyüş medallarına layiq görülüb.

Xətai rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quliyev digər rayonlarda olduğu kimi, Xətai rayonunda da Vətən müharibəsi şəhidlərinin xatirəsinin əziz tutulduğunu, onların valideynlərinin, ailə üzvlərinin daim diqqətdə saxlanıldığını, gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyə edilməsi, orduya hazırlanması işinin prioritet olduğunu vurğulayıb və bu işin bundan sonra da uğurla davam etdiriləcəyini deyib.

Yeni Azərbaycan Partiyası Xətai rayon Təşkilatının sədri, siyasi elmlər doktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadə Azərbaycan xalqının Vətən müharibəsində qazandığı tarixi Zəfərin əhəmiyyətindən, qazanılan qələbənin xalqımızın birliyinin, həmrəyliyinin, dövlətimizin iqtisadi gücünün, ordumuzun əsgər və zabitlərinin rəşadətinin, dövlətimizin başçısının qətiyyətinin, sərkərdə məharətinin, hücum diplomatiyasının və Müzəffər Ali Baş Komandanın dəmir yumruğunun qələbəsi olduğunu iftixar hissi ilə qeyd edib, şəhid valideynlərinə Vətənə mərd, mübariz, igid oğullar bəxş etdiklərı üçün minnətdarlığını bildirib.

Müharibə qazisi Anar Məmmədov ehtiyatda olan hərbi qulluqçuların, eləcə də qazilərin bu gün yenə də Müzəffər Ali Baş Komandanın əmrlərinə hazır olduqlarını bəyan edib.

Şəhid Ceyhun Həsənovun vaxtilə təhsil aldığı Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantı Nağı Nağıyev və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı Tuqay Sadıqov çıxış edərək şəhidlərimizin, qazilərimizin və bütün müharibə iştirakçılarının qəhrəmanlıq ənənələrini layiqincə davam etdirməyə söz veriblər.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri Əməkdar artist, Prezident mükafatçısı Cahangir Qurbanov, Nigar Rəhimova və Mətləb Ağayevin ifa etdikləri Zəfər nəğmələri və vətənpərvərlik mahnıları tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Xətai rayon 157 saylı tam orta məktəbin şagirdləri ədəbi-bədii kompozisiya ilə məktəblərinin yetirməsi olan Vətən Müharibəsi Qəhrəmanı kapitan Ceyhun Həsənovun ad gününü təbrik ediblər.

Şəhid atası Aydın Həsənov göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident xanım Mehriban Əliyevaya, Müdafiə Nazirliyinin və Xətai rayon İcra Hakimiyyətinin rəhbərliyinə minnətdarlığını bildirib.

Hərbi Dəniz Qüvvələrinin orkestrinin ifa etdiyi "Qələbə marşı" və məşhur "Mehtər marşı"nın sədaları altında "Zəfər yolunun qəhrəmanları" silsiləsindən növbəti tədbir başa çatıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Şəhidlərin xatirəsinə həsr olunan tədbirlər keçirildi

*Vətən müharibəsində şəhid olanların xatirəsinə həsr olunan anım mərasimləri keçirildi. Mərasimlərdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.*



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində torpaqlarımızın ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarını tanımaq və tanıtmaq məqsədilə "Şəhidlər ölməz, Vətən bölünməz" adlı tədbirlər silsiləsindən şəhid əsgər Mənsur Məmed oğlu Əhmədovun anım gününə həsr olunan tədbir keçirildi.



Tədbirdə Müdafiə Nazirliyi və ictimaiyyət nümayəndələri, şəhidin ailə üzvləri, Laçın rayon Çıraqlı kənd tam orta məktəbin müəllim və şagirdləri, döyüş yoldaşları, dostları və qohumları iştirak etdilər.

Mərasim iştirakçılarına Mənsurun qısa, lakin şərəfli ömür və döyüş yoluna həsr olunan videoçarx nümayiş etdirildi.

Şəhidin atası Mamed Əhmədov bildirdi ki, şəhidlərimiz canı bahasına illərdir düşmən əsarətində olan torpaqlarımızı azad edərək Azərbaycan xalqına Zəfər gününün sevincini yaşatdılar. O qeyd etdi ki, şəhid ailələri daim dövlət başçımızın diqqət mərkəzindədir. Məhz onun bu məsələyə həssaslığının nəticəsidir ki, bütün şəhid ailələri və müharibə qaziləri daima dövlət qayğısını və diqqətini hiss edirlər. Şəhidin atası Mamed Əhmədov göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə şəhid ailələri adından minnətdarlığını bildirdi.

Çıxış edənlər şəhid əsgər Mənsur Əhmədovun torpaqlarımızın ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək, qarşıya qoyulan tapşırıqları icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirməsindən, igidliyindən, şücaətindən və vətənpərvərliyindən söhbət açdılar.

Şəhid Mənsur Əhmədov tarixi torpaqlarımızın azadlığı uğrunda aparılan döyüş əməliyyatlarında şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Ali Baş Komandanın müvafiq Sərəncamlarına əsasən (ölümündən sonra) "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında vətənpərvərlik mövzusunda mahnılar səsləndirildi.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin və Azərbaycan Dövlət İqtisad Universitetinin Tələbə Həmkarları İttifaqı Komitəsinin təşkilatçılığı ilə "Şəhidlər ölməz, Vətən bölünməz" adlı İkinci Qarabağ müharibəsində Vətən torpaqlarımızın azad edilməsi uğrunda canlarından keçən şəhidlərimizin xatirəsinə həsr olunan anım mərasimi keçirildi.

Tədbirdə Vətən Müharibəsi Qəhrəmanı polkovnik Zaur Nudirəliyeva, universitetin magistr dərəcəsi üzrə məzunu şəhid Fərhad Fərhadlının ailəsi iştirak etdilər. Şəhidlərin həyatından bəhs edən qısametrajlı videoçarx təqdim olundu.

Şəhid pilot Zaur Nudirəliyevin qızı Pəri atası haqqında danışarkən, döyüş təyyarəsi ilə düşmənə ağır zərbələr endirdiyini bildirdi. Döyüş tapşırığını yerinə yetirən zaman şəhid olub.

İkinci Qarabağ müharibəsinin başlandığı ilk gündən Füzuli istiqamətində döyüşə atılan Fərhad Fərhadlının anası Gülümnaz xanım oğlunun xatirəsini əziz tutaraq mərasimi təşkil edən Müdafiə Nazirliyinin və İqtisad Universitetinin rəhbərliyinə dərin təşəkkürünü bildirdi.

Döyüşdə Fərhad neçə-neçə silahdaşına ilk tibbi yardım göstərərək onların həyatını xilas edib. Fərhad son anda döyüş meydanından yaralı dostlarını çıxararkən şəhidlik zirvəsinə ucalıb.

Şəhidin döyüş və iş yoldaşları, dostları, yaxınları çıxış edərək onunla birlikdə keçirdikləri günlərdən söz açdılar, xatirələrini bölüşdülər.

İqtisad Universitetinin Tələbə Həmkarları İttifaqı Komitəsinin sədr müavini Günay Ağazadə şəhidlərin yaxınlarına fəxri fərmanlar təqdim etdi.

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin kollektivinin təqdim etdiyi vətənpərvərlik mahnıları ilə başa çatdı.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Vətən torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan əsgər Tural Gəray oğlu Rəhimlinin xatirəsinə həsr olunan anım mərasimi keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin, Laçın rayon İcra Hakimiyyətinin və ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri, döyüş yoldaşları, qohumları, dostları və şəhid ailələri iştirak etdilər.

Turalın həyat və döyüş yoluna həsr olunan videoçarx nümayiş edildi.

Şəhidin atası Gəray Rəhimli qeyd etdi ki, şəhidlərimizi yad etmək və xatirələrini əziz tutmaq bizim milli mənafeyimizin yüksək olmasının başlıca səbəbudur. "Tural haqqında çox söz demək olar. O hər zaman torpaqlarımızın azadlığı uğrunda başlayacaq döyüşləri səbirsizliklə gözləyib. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında başlanan döyüşlərdə iştirak etdiyi üçün çox sevinirdi. Döyüşlər zamanı əlaqə saxladıqda hər zaman deyərdi ki, doğma Laçınımıza müqəddəs üçrəngli bayrağımızı sancacağam. Özü şəhidlik zirvəsinə yüksəlsə də, arzusu yerdə qalmadı. Onun silahdaşları bu arzusunu həyata keçirdi. Bu gün fəxr edirəm ki, mən şəhid atasıyam."

Çıxış edənlər şəhid əsgərin həyatından, hərbi xidməti zamanı göstərdiyi igidliyindən, mərdliyindən və vətənpərvərliyindən söz açdılar. Şəhid Tural Rəhimli Ali Baş Komandanın müvafiq Sərəncamları ilə (ölümündən sonra) "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Tədbirin sonunda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında vətənpərvərliyi tərənnüm edən musiqi nömrələri səsləndirildi.

**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

Torpaqlarımızın azadlığı uğrunda şəhid olanlar heç vaxt unudulmur. Xalqımız cəsur oğul və qızlarının adını həmişə əziz tutur, xatirəsini hörmətlə anır. Vətən müharibəsində şəhid olan baş leytenant Həsən Rzazadənin xatirəsinə həsr olunan anım mərasimi keçirildi.

Şəhidin anım mərasiminə toplaşan Müdafiə Nazirliyinin nümayəndələri, Xətai rayon İcra Hakimiyyətinin başçısı və rəsmiləri, Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının rəhbəri, şəhidin ailə üzvləri və yaxınları, döyüş yoldaşları, qazilər, Siyəzən rayon gəncləri və məktəblilər Həsənin məzarı önünə əklillər qoyaraq xatirəsini dərin ehtiramla yad etdilər.

Anım mərasiminə toplaşanlar "Qarabağ" ordenli baş leytenant Həsən Rzazadənin qısa və şərəfli xidmət yolundan, döyüş meydanında göstərdiyi qəhrəmanlıq nümunələrindən danışdılar. Bildirdilər ki, döyüşlərdə göstərdiyi igidliyə və qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medallarına layiq görülüb.

Xətai rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev anım mərasimində dövlətin şəhid ailələrinə göstərdiyi diqqət və qayğıdan ətraflı danışdı. Bildirdi ki, bu gün baş leytenant Həsən Rzazadənin bir vaxtlar yaşadığı binanın qarşısında xatirə lövhəsinin açılışını da edəcəyik. Biz daim şəhidləri anacaq və xatırlayacağıq.

Daha sonra çıxış edənlər Həsənin vətənpərvər, qorxmaz, mərd zabit olduğunu bildirərək belə igid oğul böyütdüklərinə görə ailə üzvlərinə təşəkkür etdilər. İkinci Qarabağ müharibəsində tarixi qələbəmizin Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, rəşadətli ordumuzun qəhrəmanlığı və xalqımızın milli birliyi sayəsində qazanıldığı bildirildi. Zəfər yürüşündə şəhid olan igid və qəhrəman oğullarımızın xatirəsinin yaddaşlara əbədi həkk olunduğunu və hər zaman dərin ehtiramla yad edildiyini dedilər. Müqəddəs amal uğrunda canından keçən bütün şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa, ailələrinə səbir dilədilər.

Zabitin ailə üzvləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidentinə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildirdilər.

Anım mərasimi xalq artistləri və məktəb şagirdlərinin vətənpərvərliyi, qəhrəmanlığı tərənnüm edən şeirlər söyləməsi ilə başa çatdı.

**"Azərbaycan Ordusu"**

# Mərhum polkovnik Tofiq Ağayevin xatirəsi anılıb



Oktyabrın 31-də mərhum polkovnik Tofiq Məmmədxan oğlu Ağayevin xatirəsi anılıb. Əvvəlcə Tofiq Ağayevin Sumqayıt şəhər qəbiristanlığında məzarı ziyarət olunub.

Mərasimdə mərhumun ailə üzvləri, Müdafiə Nazirliyinin nümayəndələri iştirak ediblər. Fəxri Qarovulun müşayiəti ilə məzar önünə əklil qoyulduqdan sonra zabit Tofiq Ağayevin ruhuna dualar oxunub.

General-mayor Bəkir Orucov mərhumun ailə üzvlərinə Müdafiə Nazirliyinin rəhbərliyi adından başsağlığı verib və qeyd edib ki, polkovnik Tofiq Ağayev Azərbaycan Ordusunun nümunəvi zabitlərindən biri kimi üzərinə düşən vəzifələrin öhdəsindən həmişə layiqincə gəlib.

Digər çıxış edənlər bildiriblər ki, mərhum zabit hər zaman gənc hərbçilərimiz üçün örnək olub, o xidməti boyunca tabeliyindəki şəxsi heyətin qayğısına qalaraq hər kəsin yaddaşında xoş izlər buraxıb. Həmçinin vurğulanıb ki, mərhum zabitin yetirməsi olan və onun təcrübəsindən faydalanan onlarla hərbi qulluqçumuz 44 günlük haqq savaşımızda düşmənə layiqincə cavab verənlər sırasında olublar.



Mərhumun yaxınları da Tofiq Ağayevin Vətəninə, xalqına, peşəsinə bağlı olmasından söhbət açıb və göstərilən diqqət və qayğıya görə Müdafiə Nazirliyinə və onun rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

**"Azərbaycan Ordusu"**

# Qəhrəmanların xatirəsi yad olundu

28 oktyabr 1995-ci ildə metronun "Ulduz" və "Nəriman Nərimanov" stansiyaları arasında baş verən yanğın onlarla şəhər sakininin həyatına son qoydu. Bu dəhşətli faciədən 26 il keçməsinə baxmayaraq, o qanlı hadisə daim qəlbimizi göynədir. Xalqımız bu qanlı faciədə həlak olanların xatirəsini həmişə əziz tutur. Soyuq bir payız günündə baş verən qanlı faciədə yaralananlara kömək edənlər arasında Cəmşid Naxçıvanski adına Hərbi Liseyin zabiti, ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülən baş leytenant Çingiz Babayev və "İgidliyə görə" medalına layiq görülən kursantlar Samir Məmmədov, Ruslan İsayev və Nicat Səfərov da olublar.



Cəmşid Naxçıvanski adına Hərbi Lisey bu günlərdə də metroda baş verən yanğın zamanı yaralılara kömək edərkən həlak olan baş leytenant Çingiz Babayev və kursantlar Samir Məmmədov, Ruslan İsayev, Nicat Səfərovun igidliyinə həsr olunan tədbir keçirildi. Məzarları ziyarət olundu, qəbirləri üzərinə gül dəstələri qoyuldu.

Tədbiri polkovnik Müslüm Nəsirov acıq elan etdi. Ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Faciədən bəhs edən videoçarx nümayiş etdirildi.

Mərasimdə iştirak edən dərnək rəhbərləri Gülsədа Amanın və Aynurə Qulamovanın hazırladıqları "Qəhrəmanlar ölməzdir" adlı ədəbi-bədii kompozisiya nümayiş edildi. Hadisədə həlak olanlara həsr olunan şeirlər toplusundan ibarət broşürlar nümayiş olundu. Kursantlar qəhrəmanlığı və vətənpərvərliyi tərənnüm edən şeirlər söylədilər.

Anım mərasimində baş leytenant Çingiz Babayevin bacısı Aidə Babayeva və kursant Samir Məmmədovun atası Nadir Məmmədov çıxış edərək doğmalarının xatirəsini əziz tutduqlarına görə Müdafiə Nazirliyinin və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəhbərliyinə minnətdarlıqlarını bildirdilər. Tədbirin sonunda xatirə şəkli çəkildi.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Komando kursunu bitirən hərbi qulluqçularımız Vətənə qayıdıblar



*Azərbaycan ilə Türkiyə arasında imzalanmış "Hərbi təhsil sahəsində əməkdaşlıq haqqında" müqavilə çərçivəsində qardaş ölkənin İsparta şəhərində keçirilən növbəti komando kursunu bitirən hərbi qulluqçularımız Vətənə qayıdıblar.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, bu münasibətlə keçirilən tədbirdə əvvəlcə Azərbaycan və Türkiyə Respublikalarının Dövlət Himnləri səsləndirilib.

Çıxış edənlər məzunları kursu müvəffəqiyyətlə bitirmələri münasibətilə təbrik edərək onlara xidmətlərində uğurlar arzulayıblar.

Azərbaycan Ordusunun hərbi qulluqçularından ibarət növbəti heyət komando kursunda iştirak etmək üçün Türkiyənin İsparta şəhərinə yola salınıb.

# Döyüş maşınları heyətlərinin yarışı keçirilir



Təsdiq olunmuş döyüş hazırlığı planına əsasən, Quru Qoşunlarında "Ən yaxşı PDM-2, PDM-3 və ZTR-82A heyəti" adı uğrunda yarış keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, şəxsi heyətin döyüş hazırlığını yüksək səviyyədə saxlamaq məqsədilə keçirilən yarış dörd mərhələdən ibarətdir.

Fiziki hazırlıq, atəş hazırlığı və sürücülük üzrə tapşırıqları icra edən hərbi qulluqçular, yarışın qaydalarına uyğun olaraq fərdi və heyət şəklində normativləri də yerinə yetirirlər.

Yarış noyabrın 4-dək davam edəcək.

# “Zəfər yarmarkası”nda hərbi texnika nümayiş olunur



Zəfər günü ilə əlaqədar Dənizkənarı bulvar ərazisində keçirilən "Zəfər yarmarkası"nda Azərbaycan Ordusunun silahlanmasında olan bir sıra silah, texnika və PUA nümunələri, eləcə də müxtəlif təminat növləri nümayiş etdirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi tərəfindən vətənpərvərlik mövzusunda musiqi nömrələri təqdim olunur.

Yarmarkada Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin "Əsgərə məktub" layihəsi qonaqlar tərəfindən maraqla qarşılanıb və onlar həvəslə Vətənin keşiyində duran Azərbaycan əsgərinə sevgi dolu məktublar yazıblar.



Qeyd edək ki, Azərbaycan Ordusunda zabit, gizir və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etmək üçün təhsil müəssisələrinə qəbul qaydaları barədə ətraflı məlumatların əks olunduğu bukletlər yarmarkaya təşrif buyuran vətəndaşlara paylanılacaq.

# Naxçıvan Qarnizonu Qoşunlarında “Zəfər yolumuz” adlı silsilə tədbirlər keçirilir





Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" Sərəncamına uyğun olaraq Naxçıvan Qarnizonu Qoşunlarında 8 Noyabr - Zəfər Gününün təntənəli şəkildə qeyd edilməsi məqsədilə silsilə tədbirlər keçirilir.

Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən təsdiq olunan tədbirlər planına əsasən bütün birləşmə, hissə və bölmələrdə, Təlim-Tədris Mərkəzlərində, Heydər Əliyev adına Hərbi Liseydə, Naxçıvan Qarnizonunun tam orta məktəbində və uşaq bağçalarında bir sıra maraqlı tədbirlər keçirilir.

Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrindən birində keçirilən "Zəfər yolumuz" adlı hərbi vətənpərvərlik tədbirində iştirak edən Naxçıvan Muxtar Respublikasının tələbə-gənclər və veteranlar təşkilatları, ictimaiyyət, mədəniyyət, mətbuat nümayəndələri və Vətən müharibəsinin iştirakçıları şəxsi heyətin sosial-məişət şəraiti və döyüş növbətçiliyi ilə tanış oldular.

Kütləvi informasiya vasitələrinin nümayəndələri çəkilişlər aparan zaman şahidi oldular ki, əsgər və zabitlərin rahat şəkildə istirahəti, qidalanması və nümunəvi xidməti üçün tikilən müasir əsgəri-məişət komplekslərində qış tədarükü görülərək isti geyim, yanacaq, içməli su və ərzaq təminatı yaradılıb. Hərbi hissənin zabiti Nurşəmil Şahbazov çətin dağlıq şəraitdə yaradılan nümunəvi xidmət şəraiti ilə bağlı ön xətdə olan qonaqlara məlumat verməklə bərabər, şəxsi heyətin mənəvi-psixoloji, fiziki və döyüş hazırlığından da qürurla danışdı.

Çavuş Rasim Hüseynov komandiri olduğu manqanın bütün əsgərlərinin nümunəvi xidmət etdiyini diqqətə çatdıraraq onlardan bir neçəsinin də adını çəkdi. Manqa komandiri qeyd etdi ki, əsgərlərdən Əli Əsədli, Vüsal Əmrahov, Ramiz Kərimli və digərləri hər zaman məsuliyyətli xidmətləri ilə komandirlərinə və valideynlərinə başucalığı gətiriblər.



Əsgər Turqut Tağıyev əsgər yoldaşları ilə dost olmaqdan daha çox qardaşlıq hissləri ilə uğurlu döyüş növbətçiliyi apardıqlarını bildirdi. Əsgərlərdən Şahin Məmmədov, Nəcəf Manafov, İlqar Hüseynli və başqaları da isti geyim və keyfiyyətli ərzaqla təmin olunduqlarını, dövlətin və xalqın dəstəyini hər zaman üzərlərində hiss etdiklərini, keçirilən məşğələlərdə yüksək döyüş hazırlığına yiyələndiklərini qeyd etdilər.

Qonaqların nümunəvi xidmət şəraiti və şəxsi heyətin apardığı döyüş növbətçiliyi ilə tanışlığından sonra "Zəfər yolumuz" adlı tədbir hərbi hissənin əsgər yeməkxanasında davam etdi.

Tədbirdə şəhidlərimizin əziz xatirəsi yad edildi və Dövlət Himnimiz səsləndirildi. Əlahiddə Ümumqoşun Ordunun zabitləri, müharibə veteranları, qazilər və ictimaiyyət nümayəndələri çıxış edərək 44 günlük Vətən müharibəsində qazanılan qələbədən, dövlət-xalq-ordu birliyindən danışdılar.

Əlahiddə Ümumqoşun Ordunun zabiti polkovnik Fariz Sərxanov bildirdi ki, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altındakı torpaqlarımızın azadlığı uğrunda həyata keçirdiyi zəfər dolu uğurlu əks-hücum əməliyyatında hərbi qulluqçularımız şücaətləri ilə düşmənə layiqli cavab verdilər və biz Qələbə qazandıq. “Azərbaycanımızın bütövlüyü və müdafiəsi uğrunda gedən döyüşlərdə Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularından yaralanan və şəhidlik zirvəsinə ucalanlar oldu. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov tərəfindən hərbi qulluqçuların, müharibə veteranlarının və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülür. Təbii ki, müharibə iştirakçılarına verilən dəyər hər bir gəncdə böyük ruh yüksəkliyi yaradır”.

Vətən müharibəsinin iştirakçılarından Təbriz Zeynalov, Pərvin Tağızadə, Eltun Qafqazi, Dağıstan Hüseynov, Əziz Şükürov və Cavad Heydərov keçdikləri döyüş yolundan, döyüş meydanında ordumuzun rəşadətlə irəliləməsindən, qazanılan zəfərdən qürurla danışdılar.

Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının, hərbi hissələrin bədii özfəaliyyət kollektivlərinin üzvləri əsgərlər qarşısında ədəbi-bədii kompozisiya ilə çıxış etdilər.

Tədbir zamanı kütləvi informasiya vasitələrinin nümayəndələri zabit, gizir və əsgərlərdən, müharibə iştirakçılarından, mədəniyyət və ictimaiyyət nümayəndələrindən müsahibələr alaraq onların təəssüratlarını öyrənməyə çalışdılar. Təşkil olunan tədbirdə hər kəs bir daha dövlət-xalq-ordu birliyinin şahidi oldu.

Naxçıvan Qarnizonu Qoşunlarında keçirilən "Zəfər yolumuz" adlı silsilə tədbirlər davam edir.

**Nəriman NƏCƏFOV**
**Naxçıvan Muxtar Respublikası**

## “Bu günə qədər olduğu kimi, bundan sonra da haqlı mübarizəsində azərbaycanlı qardaşlarımızın yanındayıq”

*Türkiyə Silahlı Qüvvələri Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərdə mina və digər partlayıcı vasitələrin axtarışı və zərərsizləşdirilməsi işinə modernləşdirmə və təlim fəaliyyətləri ilə dəstəyini davam etdirir. Birgə fəaliyyət nəticəsində bu günə qədər 123 kvadratkilometr ərazi minalardan təmizlənib.*

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyinin fəaliyyəti və gündəmdəki mövzularla bağlı təşkil edilən mətbuat konfransında məlumat verilib.

Qeyd edilib ki, mina və partlayıcı vasitələrin təmizlənməsi istiqamətində indiyədək Azərbaycandan 899 nəfər üçün təlim keçirilib. Türkiyə və Azərbaycan Silahlı Qüvvələri arasında əməkdaşlıq, təlimlərin planlaşdırılması və keçirilməsi, idarəetmə və icra prinsiplərinin uyğunlaşdırılması məqsədilə başlanmış "Qardaş Briqada" layihəsi davam etdirilir. Bu çərçivədə 2021-ci il oktyabrın 5-dən 8-dək Türkiyə və Azərbaycan təmsilçilərinin iştirakı ilə Naxçıvanda "Sarsılmaz Qardaşlıq-2021" təlimi keçirilib.

"Bir millət, iki dövlət" şüarı ilə kədərdə və sevincdə də bərabər olduğumuz azərbaycanlı qardaşlarımızı noyabrın 8-də qeyd olunacaq Zəfər Günü münasibətilə təbrik edirik. Bu günə qədər olduğu kimi, bundan sonra da haqlı mübarizələrində azərbaycanlı qardaşlarımızın yanında olmaqda davam edəcəyimizi bir daha vurğulayırıq", - deyə mətbuat konfransında bildirilib.

# Şəhid pilotun anım mərasimində Zəfər nəğmələri səslənib





"Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən bu il noyabrın 8-i ilk dəfə olaraq ölkəmizdə təntənəli şəkildə, ümumxalq bayramı kimi qeyd ediləcək.

Sərəncamda göstərilir ki, Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu...

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin gələcəyini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi Zəfər çaldı...

Respublikamızın hər yerində olduğu kimi, Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində də Zəfər Günü ərəfəsində silsilə tədbirlər həyata keçirilir.

"Zəfər Yolunun Qəhrəmanları" layihəsi həm ordumuzun şəxsi heyəti, həm də ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanıb.

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin klubunda reallaşan növbəti tədbirdə Vətən müharibəsində möhtəşəm qələbənin qazanılmasında müstəsna xidmətləri olan Hərbi Hava Qüvvələrimizin şəhid pilotu polkovnik Zaur İsmayıl oğlu Nudirəliyevin xatirəsi ehtiramla yad edilib.

Müdafiə Nazirliyinin nümayəndələri, Nərimanov rayon İcra Hakimiyyətinin rəsmiləri, millət vəkilləri, şəhid ailələri, mədəniyyət və elm xadimləri, Bakı Qarnizonundakı hərbi hissələrin və xüsusi təyinatlı təhsil müəssisələrinin hərbi qulluqçuları, kursantlar, müharibə iştirakçıları və qazilərin iştirak etdikləri tədbirdə əvvəlcə şəhidlərin xatirəsinə bir dəqiqəlik sükut elan edilib, Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Layihənin müəllifi polkovnik Abdulla Qurbani nəzərə çatdırıb ki, bugünkü teatrlaşdırılmış ədəbi-musiqili tamaşanın baş qəhrəmanı ulu öndər Heydər Əliyevin 50 il öncə - 1971-ci ildə yaratdığı indiki Cəmşid Naxçıvanski adına Hərbi liseyin yetirməsidir. İstər Birinci, istərsə də İkinci Qarabağ müharibəsində xalqımızın haqlı olaraq "Heydər Əliyev Məktəbi" adlandırdığı bu təhsil ocağından pərvazlanan peşəkar zabitlər əsl qəhrəmanlıq, mərdlik və şücaət nümunələri göstərərək müasir hərb tariximizə parlaq səhifələr yazıblar.



C.Naxçıvanski adına Hərbi Liseyin, eləcə də bu məktəbin Naxçıvan filialının bazasında yaradılan Heydər Əliyev adına Hərbi Liseyin yüzlərlə yetirməsi olan zabitlər bütün qoşun növlərində təmsil olunaraq Ulu Öndərin arzularının həyata keçməsi, Qarabağın işğaldan azad olunması uğrunda döyüşlərdə fəal iştirak edərək xalqımızın 30 illik həsrətinə son qoyublar. Onlardan neçəsi respublikamızın ərazi bütövlüyünün bərpası, tarixi torpaqlarımızın işğaldan azad edilməsi naminə hərbi əməliyyatlarda öz canlarından, qanlarından keçərək şəhidlik zirvəsinə ucalıb, neçəsi döyüşlərdə sağlamlığını itirib, neçəsi isə bu gün də ordu sıralarında dövlətimizin təhlükəsizliyi, sərhədlərimizin toxunulmazlığı naminə xidmətlərini şərəflə davam etdirir, düşmən təxribatlarının qarşısını qətiyyətlə alırlar.

Sonra polkovnik A.Qurbani şəhid polkovnik Zaur Nudirəliyevin həyat və döyüş yolu ilə bağlı ətraflı məlumat verib.

Bildirilib ki, Zaur Nudirəliyev 1 sentyabr 1978-ci ildə Bakı şəhərində anadan olub. 1995-ci ildə Cəmşid Naxçıvanski adına İbtidai Hərbi Məktəbi (indiki Cəmşid Naxçıvanski adına Hərbi Lisey), 1999-cu ildə Türkiyə Respublikası Hərbi Təyyarəçilik Məktəbini uğurla bitirib.

Aviasiya eskadrilyası aviasiya manqasının təyyarəçisi vəzifəsindən "Su-25" təyyarələri üzrə aviasiya eskadrilyasının komandiri vəzifəsinədək yüksəlib.

Vətən müharibəsi başlananda polkovnik Nudirəliyev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində xidmət edirdi. Müharibənin ilk günündən sevimli təyyarəsinin sükanı arxasına keçərək döyüş uçuşlarını müvəffəqiyyətlə həyata keçirib. Ağdərə-Tərtər, Füzuli-Cəbrayıl istiqamətlərində düşmənin hərbi bazalarının, döyüş mövqelərinin, zenit-raket komplekslərinin, radio-elektron mübarizə vasitələrinin, silah-sursat anbarlarının və digər infrastrukturunun darmadağın edilməsində xüsusilə fərqlənib. Hərbi texnika və canlı qüvvə sarıdan düşmənə xeyli itkilər verib. Uzun illərdir ki, işğalçıların betonlayıb bərkitdikləri bir çox bunker, istehkam tikililərinə sarsıdıcı, dağıdıcı zərbələr endirib.

Hərbi Hava Qüvvələrinin komandanı - Müdafiə nazirinin müavini general-leytenant Ramiz Tahirovun 44 günlük Vətən müharibəsində hərbi aviasiyamızın xidmətləri barədə ətraflı çıxışı həm hərbi qulluqçuların, həm də qonaqların böyük marağına səbəb olub. Komandan milli şahinlərimizin və hava hücumundan müdafiə hərbi qulluqçularının - görünməyən qəhrəmanların əfsanəvi igidliklərindən, yeni müharibə müstəvisinə gətirdikləri yeniliklərdən, alınan yeni nəsil təyyarə, helikopter, pilotsuz uçuş aparatları və hava hücumundan müdafiə və digər aviasiya vasitələrindən milli şahinlərimizin peşəkarlıqla istifadə etdiklərindən, dünyanın bir çox ölkələrində, əsasən də qardaş Türkiyədə aldıqları təhsildən, beynəlxalq təlimlərdə əldə olunan təcrübələrdən Vətən müharibəsində səmərəli şəkildə və ustalıqla tətbiq etmələrindən qürurla danışıb.

Komandan Zaur Nudirəliyev və Ramiz Qasımov kimi bacarıqlı, təcrübəli şahinlərimizin həlak olmasını xalqımız və ordumuz üçün ağır itki hesab etsə də, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Hərbi Qənimətlər Parkında təltif olunan hərbi qulluqçularla görüşdə dediyi fikirləri xatırladaraq şəhidlərin ailə üzvlərinin qazanılan böyük Zəfərlə təsəlli tapdıqlarını dilə gətirib: "Şəhidlərimizin yaxınları üçün təsəlli odur ki, onlar öz canlarını Vətən uğrunda qurban verdilər. Təsəlli odur ki, torpaqlarımız azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. Eyni zamanda, təsəlli odur ki, şəhidlərimizin intiqamını biz döyüş meydanında aldıq. Şəhidlərimizin qanı yerdə qalmadı".

General-leytenant R.Tahirov böyük Zəfərin qazanılmasında xidmətləri olan hər bir döyüşçünün Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə təltif olunduğunu qeyd edərək vurğulayıb ki, polkovnik Zaur Nudirəliyevin xidmətləri də dövlət səviyyəsində yüksək qiymətləndirilib. Bir neçə gün ərzində 13-cü döyüş uçuşunu da uğurla yerinə yetirib şəhidlik zirvəsinə ucalan igid pilotumuza ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunan ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulan döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən Müharibəsi Qəhrəmanı" adının verilməsi, onun "Vətən uğrunda", Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunması şəhid pilotun xidmətlərinə göstərilən ən yüksək dəyərdir.

Polkovnik Z.Nudirəliyevin ölümündən sonra təltif olunduğu digər 2 medal - "Cəbrayılın azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları da alqışlar altında komandan tərəfindən şəhidin həyat yoldaşı Nazilə Nudirəliyevaya təqdim edilib.

Şəhidin dəfnində onun iki yadigar övladını atalarının adına layiq böyüdüb, tərbiyə edəcəyinə and içən Nazilə xanımın dediyi "Vətən sağ olsun!" kəlmələri alqışlarla qarşılanıb.

Millət vəkili Hikmət Babaoğlu, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rəisi general-leytenant Fizuli Salahov və Nərimanov rayon İcra Hakimiyyəti başçısı Abdin Fərzəliyev də Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində qazandığımız qələbənin tarixi əhəmiyyətindən, ordu-xalq birliyindən iftixar hissi ilə danışıb, Zəfər yolunun qəhrəmanlarını hörmətlə yad edib, onların xatirələrinin bundan sonra da əziz tutulacağına əminliklərini bildiriblər.

Milli Azərbaycan Elmlər Akademiyası Folklor İnstitutunun direktoru, filologiya elmləri doktoru, akademik Muxtar İmanov Vətən müharibəsində möhtəşəm Zəfərin qazanılmasında müasir silahların, yeni texnikaların böyük rolu ilə yanaşı, milli-mənəvi dəyərlər əsasında tərbiyə edilən müasir Azərbaycan döyüşçüsünün vətənpərvərlik hissinin, mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun da az rol oynamadığını söyləyib. Azərbaycan folklorundan, xalq yaradıcılığından, o cümlədən möhtəşəm "Dədə Qorqud" boylarından nümunələr gətirən akademik Ulu Öndərin vaxtilə söylədiyi bir fikrin bu gün də aktual olduğunu diqqətə çatdırıb və Azərbaycan əsgərinə şəhidlərimizin qəhrəmanlıq ənənələrini bundan sonra da uğurla davam etdirməyi arzulayıb.

O deyib: "Mən inanıram ki, hərbi qulluqçularımız Ulu Öndərdən miras bu kəlamları heç vaxt unutmayacaqlar: "Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik".

Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanov və "Azərbaycan Bayrağı" ordenli ehtiyatda olan polkovnik-leytenant Etibar Camalov şəhid polkovnik Zaur Nudirəliyevin təhsil aldığı Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunları olduqları üçün fəxr etdiklərini və bu gün də Azərbaycan naminə Müzəffər Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olduqlarını bəyan ediblər.

Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Qorqud" ansamblının (ansamblın rəhbəri Əməkdar artist Nuriyyə Hüseynovadır), Bakı Bələdiyyə Teatrı aktyorlarının və Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzi yaradıcı heyətinin iştirakı ilə təqdim olunan ədəbi-musiqili kompozisiya və Zəfər nəğmələri böyük maraqla qarşılanıb.

Tədbirdən sonra şəhid Z.Nudirəliyevin dəfn edildiyi İkinci Şəhidlər xiyabanı ziyarət olunub, məzarı önünə əklil və güllər düzülüb.

"Zəfər Yolunun Qəhrəmanları" layihəsi çərçivəsində vətənpərvərlik tədbirləri davam edir.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

*Ordenli igidlərimiz*

# "Niyyəti bəlli düşmənin özünü görmək çətin deyildi"



Vətən müharibəsi Zəfərlə başa çatdı. Bu Zəfər Azərbaycan Ordusunun qadirliyinin təsdiqi oldu. Ermənistan da, onun havadarları da gördülər ki, vətənpərvərlik işğalçılığı diz çökdürdü. Gördülər ki, Azərbaycan Ordusu düşmənin on illərlə yaratdığı, möhkəmləndirdiyi, təkmilləşdiriyi sədləri darmadağın etdi. Döyüşlərdə iştirak edənlər də, ictimaiyyət də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dediyi digər fikirlər kimi "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək. Biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Ermənistan isə məğlub edilmiş ölkədir, bizim qarşımızda diz çökmüş ölkədir. Başını, boynunu bükmüş ölkədir və həmişə belə olacaq" fikrini də böyük qürurla yaşayıb, yaşadır. Vətən müharibəsi iştirakçıları ilə söhbətlərimizdə Vətən müharibəsindən, döyüşlərdən, mövqe qələbələrindən, Zəfərdən danışırıq. Hər söhbəti Vətən müharibəsinin tarixi bilirik.

"N" hərbi hissəsində hərbi qulluqçular döyüşləri xatırladılar. Həm də qürurla xatırladılar. Xatırlananları zaman anlamında dünənlərin işığı bildik.

Baş leytenant Abdulla Əliyev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunudur. Artilleriyaçıdır. "Piyadalar gördüyü, müşahidə etdiyi düşmənlə döyüşür. Artilleriyaçılar əksər vaxtlarda düşmənin görünməyən mövqelərində qruplaşmalarıyla, döyüş texnikalarıyla, gizli sığınacaqlardakı canlı qüvvəsiylə döyüşürlər. Görünməmə amili çətinlik törədirmi?" - soruşdum. Abdulla gülümsündü:

- Yüz illərdi artilleriyanın döyüşü belədi. "Şıxlinski üçbucağı" belə döyüşlərin nəzəri əsasıdı. Dünyanın bütün dövlətləri artilleriyasını "Şıxlinski üçbucağı" əsasında qurub inkişaf etdirib.

Bir anlığa duruxdu. Sonra alnını ovuşdurdu:

- Müharibədə müşahidə təkcə gözlə aparılmır, həm də ürəyin gözüylə aparılır. Vətən müharibəsində də belə döyüşdük. Biz düşmənlə üz-üzə döyüşənlərimizi kifayət qədər gərəkli səviyyədə artilleriya atışları ilə dəstəklədik.

Füzuli rayonunun Alxanlı kəndi istiqamətindəydik. Komandirin göstərişi ilə təyin olunmuş yerdə mövqelənmişdik. Çox uzaqlardan döyüş texnikalarının səsi, atış səsləri gəlirdi. Bu məqamda bizə düşmən tanklarının koordinatları verildi. Biri digərindən bir qədər aralı 4 tank yaxınlaşırdı. Elə bil biri digərini izləyirdi. Bir qədər gözləməyi qərara aldıq. Niyə? Təkcə atışın dəqiqliynə görəmi? - yox. Güman edirdik ki, o tankların arxasınca düşmənin digər tankları, piyadaları da gələ bilər. Anlar ötüşüncə həyəcanlanırdıq. Bu atış bizim Vətən müharibəsində ilk atışımız olacaqdı.

Döyüşçünün həyəcanı barmağı tətiyə toxunduğu anda sovuşur. Müharibədə ilk və son güllə amili var. Baş leytenant Abdulla Əliyev də bu amildən söz açdı.

- Bu mənim Vətən müharibəsində ilk döyüşüm idi. Kursant olanda öyrəndiklərim, təlimlərdə təkmilləşənlər indi döyüş bacarığı kimi gərəkli olacaqdı. Düşmənin tanklarından əvvəl birini, sonra digərlərini məhv etdik. Dördü də alışdı. İlk atışda nisbi həyəcan sonrakı atışlarda sovuşdu. Mənə elə gəldi ki, bu atışlara görə tankçı şəhid qəhrəmanlarımızın ruhunun səsini eşitdim: Əlinizə sağlıq, qardaş!..

Baş leytenant Abdulla Əliyevə mən də "Əlinizə sağlıq!" dedim. Həm öz adımdan, həm də 2017-ci il iyulun 5-də ermənilərin atdığı mərmilərin qəlpələrindən həlak olan 18 aylıq Zəhranın əvəzindən dedim. Mənə elə gəldi ki, ağacların yarpaqları titrəşdi...

Baş leytenant Abdulla Əliyev dedi ki, mərminin sürəti böyük olur. Atış anından koordinata çatma və obyekti məhvetmə müddəti çox deyil. Bu amili bir atışın mahiyyətini dürüst anlatmaq üçün dedi:

- Düşmən tankı tank üçün hazırlanmış səngərdən çıxır, atəşlər açır, sonra yenə görünməz olurdu. Komandanlıq bu tankın vurulmasını əmr etdi. Müşahidə apardıq. Onun iki atışı arasında zaman fərqini müəyyənləşdirdik. Atışı bu fərqə görə nizamlamağı qərara aldıq. Yəni, tankın növbəti görünmə müddətini təxmin edib atış vaxtını müəyyənləşdirdik. Atış düşmənin tankını alışdırdı...

Xatırladım ki, Füzulinin Babı kəndi yaxınlığında gedən döyüşlərdə düşmən snayperi döyüşçülərimizə hücuma keçməyə imkan vermir; dikələni vurur, sonra görünməz olurdu. Hücum üçün snayper məhv edilməli idi. Əmr məsafədən icra edilə bilərdi. Artilleriya atəşi ilə. Həmin snayper də məhv edildi. Piyadalarımız mühüm mövqe qələbəsi qazandı. Bu qələbə sonrakı qələbələrə, sonrakı qələbələr Zəfərə yol açdı...

Baş leytenant Abdulla Əliyevin özü də, batareyanın şəxsi heyəti də sonrakı döyüşlərdə komandanlığın, hərbi hissə rəhbərliyinin əmrlərini məsuliyyətlə, qətiyyətlə yerinə yetirdi...

Baş leytenant Abdulla Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə "Azərbaycan bayrağı" ordeni və "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilib...

"Azərbaycan Ordusunun bütün hərbi qulluqçuları kimi mən də qürurlanıram. Həm də Vətən müharibəsinin iştirakçısı olmağımla qürurlanıram. Həm də batareyamızın şəxsi heyətinin hərbi xidməti ilə qürurlanıram..." - baş leytenant Abdulla Əliyev belə dedi. Səmimi kəlmələr idi...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Hərbi texnikalar, silahlar*

# "Orion-E" pilotsuz uçuş aparatı







"Orion-E" pilotsuz uçuş aparatı Rusiyanın "Kronştadt" şirkəti tərəfindən hazırlanıb və uzunmüddətli uçuş davamiyyətinə malikdir. Pilotsuz uçuş aparatı bu yaxınlarda Jukovda keçirilən beynəlxalq aviakosmik MAKS-2021 salonunda nümayiş etdirilib. "Orion-E" həm kəşfiyyat, həm də zərbə məqsədilə istifadə edilir. Pilotsuz uçuş aparatı 115 at gücündə Rotax 914 mühərriki ilə təchiz edilib. Maksimal uçuş çəkisinin 1000 kiloqram və faydalı yükünün 200 kiloqrama qədər olmaqla sürətini saatda 200 kilometrə qədər artıra bilir. Onun maksimal uçuş müddəti 24 saata qədərdir. Radiokanal üzrə maksimal hərəkət radiusu 250 kilometr təşkil edir.

"Orion-E" pilotsuz uçuş aparatının arsenalında müxtəlif tipli aviasiya bombaları və idarəolunan X-50 aviasiya raketləri vardır. Taktiki-texniki xüsusiyyətlərinə görə "Orion-E" uçuş aparatında "yer-hava" sinfindən olan dörd ədəd raket də yerləşdirilə bilər.

**Hazırladı:**
**Svetlana YUSUBOVA**
**"Azərbaycan Ordusu"**

# İdman

## Karateçilərimiz Çexiyada beynəlxalq turnirdə uğurla çıxış ediblər



Karate üzrə milli komandamızın üzvü İrina Zaretska Çexiyanın Plzen şəhərində keçirilmiş beynəlxalq turnirinin ikiqat qalibi olub.

O, həm 68 kiloqram çəki dərəcəsində, həm də mütləq çəkidə bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıb.

"Qara Qaplan" klubunun üzvü Veronika Qaşnikova isə 47 kiloqram çəki dərəcəsində birinci yeri tutub.

Karateçilərimiz beynəlxalq turnirdə qadınlardan ibarət yığma komandanın baş məşqçisi Denis Morozovun rəhbərliyi altında iştirak ediblər.

## "Grand Swiss-2021": Aydın Süleymanlı ardıcıl ikinci qələbəsini qazanıb



Riqada şahmat üzrə "Grand Swiss-2021" turnirinin altıncı turunun oyunları keçirilib.

Şahmatçılarımızdan yalnız Aydın Süleymanlı altıncı turda qələbə qazanıb. Qeyd edək ki, təmsilçimiz ötən turda da rəqibini məğlub edib. Digər şahmatçılarımızdan Rauf Məmmədov Surya Şekhar Ganquli (Hindistan), Nicat Abasov Villagra Cristobal Henriquez (Çili), Vasif Durarbəyli İvan Çeparinov (Bolqarıstan) ilə heç-heçə ediblər.

Altı turun nəticəsinə görə, R.Məmmədov, N.Abasov, A.Süleymanov hərəyə 2,5 xal qazanıblar. V.Durarbəylinin aktivində isə 2 xal var.

## Bakıda keçiriləcək dünya çempionatında Azərbaycanı 1 gimnast təmsil edəcək



Noyabrın 18-21-də Bakıda ilk dəfə batut gimnastikası üzrə dünya çempionatı təşkil olunacaq.

İlkin qeydiyyat siyahısına əsasən, 33 ölkə yarışda iştirakını təsdiqləyib.

Ölkəmizi yarışda Mixail Malkin təmsil edəcək.

Dörd gün davam edəcək çempionatda gimnastlar batut üzərində fərdi və sinxron tullanışlar, tamblinq və ikili mini-batut üzrə proqramlarda çıxış edəcəklər. Bundan əlavə, komanda hesabında qaliblər müəyyənləşəcək.

Yarışların ilkin cədvəlinə əsasən, ilk iki gün təsnifat, sonuncu iki gün isə finallar keçiriləcək. Qaydalara əsasən, bir iştirakçı bir neçə proqramda çıxış edə bilər.

Çempionatda hər bir proqram üzrə təsnifat və final mərhələləri baş tutacaq.

## "Qarapapaq" peşəkar boks gecəsi turnirinin qalibləri müəyyənləşib



Oktyabrın 30-da Bakı İdman Sarayında 8 Noyabr - Zəfər Gününə həsr olunmuş "Qarapapaq" peşəkar boks gecəsi yarışı keçirilib.

Yekun nəticələrə görə, müxtəlif çəki dərəcələrində Novruz Hüseynov, Taryel Cəfərov, Əzrək Bəbirov, Kənan Kazımov, Nihat Abdullayev, Ruslan Məmmədov, Rauf Ağayev, Fuad Tarverdi qalib elan olunublar. Pərvin Heydərov-Nicat Həsənov qarşılaşması isə heç-heçə başa çatıb.

Turnirdə 18 peşəkar boksçunun iştirakı ilə 9 döyüş keçirilib.

**AZƏRTAC-ın**
**materialları əsasında**

Baş redaktor vəzifəsini icra edən kapitan Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
baş leytenant Orxan HÜSEYNLİ

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 694
Nüsxə 4044